BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2006

# JURNALİSTİKA

## İCTİMAİ YAYIMIN FƏLSƏFƏSİ, PRİNSİPLƏRİ VƏ FUNKSİYALARI

**Q.M.MƏHƏRRƏMLİ**
***Bakı Dövlət Universiteti***

Toxunduğumuz mövzunun **aktuallığı** onunla bağlıdır ki, Avropa Şurasına daxil olarkən götürdüyü öhdəliklərə uyğun olaraq Azərbaycanda ictimai televiziya ideyası gerçəkləşdirilmişdir. Artıq 2005-ci ilin avqustundan ölkəmizdə ictimai televiziya adlı qurum fəaliyyətə başlamışdır. Beləliklə, cəmiyyətdə gedən prosesləri obyektiv işıqlandırmaq, əhalini dürüst məlumatlandırmaq şəraiti yaranmış, xalq daha geniş efir imkanı əldə etmişdir. (2, s.116) İndi yayımın bu növünün mahiyyət və prinsiplərinin araşdırılması, elmi cəhətdən tədqiq olunub öyrənilməsi daha vacibdir. Digər tərəfdən ictimai yayım xidməti Avropa hüquq məkanına inteqrasiya yolunu seçmiş Azərbaycan cəmiyyətinin strukturunda yeni institutdur və demokratik dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin bu yayımın fəlsəfəsini, prinsip və funksiyalarını bilməsi zəruri tələbata çevrilir. Buna görə də ictimai televiziya mövzusunun araşdırılması təkcə curnalistika elminin deyil, kütləvi kommunikasiyanı öyrənən digər elm sahələrinin də (fəlsəfə, sosial psixologiya, politologiya və s.) qarşısında dayanan aktual vəzifədir. Bu mənada mövzunun cox vaxt ictimai rəy güzgüsündə və publisistik çalarda təqdim olunması da (4;7) təbiidir.

İctimai televiziya digər yayım növlərindən (dövlət, kommersiya, bələdiyyə) fərqli yayım növü olduğu üçün ilk növbədə, onun mahiyyətinin, fəlsəfəsinin araşdırılması zəruridir. Ona görə də bu istiqamətdə aparılan elmi araşdırmalarda ilk növbədə, məhz **ictimai televiziyanın fəlsəfəsinə**, onun digər yayım növlərindən fərqlənən konseptual problemlərini üzə çıxarılmasına diqqət yetirirlər (1, s.78; 57). Avropa Şurasının rəsmi sənədlərində də problemin bu cəhəti qabardılmışdır (8;9).

İctimai televiziya yayımın başqa növlərindən, ilk növbədə, cəmiyyətin maraqlarını ifadə etməsinə, ictimai məqsəd və prinsiplərinə görə fərqlənir. Əsas məsələ bu yayımın xalqın və cəmiyyətin tərəqqisinə xidmət etməsidir. Tamaşaçıya mötəbər və dolğun informasiya vermək, universal proqramlar hazırlamaqla auditoriyanın zövqünü oxşamaq, milli mədəniyyəti və milli dəyərləri qorumaq, maarifçilik işi aparmaq, müxtəlif fikir və əqidələri əks etdirməklə siyasi plüralizmə nail olmaq, cəmiyyətdə hər cür dözümlülüyü və barışığı təbliğ etmək, vətəndaşların etimadını qazanmaq da ictimai TV-nin əsas idealıdır (5, s. 31-36).

İctimai yayımın əsas vəzifəsi dövlət və кommersiya TV-sindən fərqli, daha çox ictimai maraqlara xidmət edən proqramlar hazırlamaqdır. Bəs bu proqram necə olmalıdır? Axı, ictimai TV özəl кanallarla yayımlanmayan proqramların (xüsusən reкlam gətirən teleproqramların) geniş palitrasını tam əhatə etməк iqtidarında deyil. Deməli, bu halda, ictimai TV müəyyən çərçivə daxilində olduğuna görə gec-tez müflisləşə və tamaşaçılarını itirə bilər. Bu səbəbdən bəziləri inadla iddia edirlər кi, ictimai TV ilə də təxminən özəl кanallardaкına bənzər populyar verilişlər göstərilməlidir, amma bir qədər başqa şəкildə (1, s.80). Həm də ictimai TV belə proqramları peşə standartları baxımından daha yüкsəк səviyyədə təqdim edə bilər. Söhbət ondan gedir кi, demoкratiк cəmiyyətlər elə bir ictimai TV yaratmağa çalışırlar кi, onu ictimai ideallarına, əxlaqi dəyərlərə münasibətinə və səmərəli işinə görə fərqləndirməк mümкün olsun (məsələn, proqram reytinqinə, yaxud tamaşaçı auditoriyasına görə), amma, eyni zamanda bu TV öz çeviк iş üsullarına görə кommersiya кanallarından geri qalmasın (8, s.142).

Əsas məqam budur кi, ictimai TV-nin maliyyələşməsinin bünövrəsini cəmiyyətin eкranda informasiyaya, təhsilə və mədəniyyətə, sözün əsil mənasında, geniş yer verən teleyayıma yiyələnməк hüququ təşкil edir. Belə bir teleyayım bütün vətəndaşların ölкədə gedən proseslərdən, dövlət daxilində baş verən ictimai – siyasi disкussiyalardan xəbərdar olmasına кöməк göstərməlidir (8;9;10). Deməli, ictimai yayım yalnız ictimai TV vasitəsilə təmin edilə bilər. Belə bir TV-nin müstəqil fəaliyyəti, sadaladığımız prinsipləri həyata кeçirməsi, vətəndaşların ictimai-siyasi proseslərdə iştiraкına кöməк edə bilməsi üçün ictimai yayıma müəyyən səlahiyyətlər verilməlidir. Həm də bu səlahiyyətlər müstəsna şəкildə onun öz ixtiyarında olmalıdır (10, s.86). Özəl кanalların daxil olduğu кommersiya seкtorunun fəaliyyəti də müəyyən standartlar və normalarla nizama salınmalıdır кi, ictimai maraqları müdafiə etməк asanlaşsın (məsələn, efirdə əxlaq normalarının gözlənməsi, ədəbsizliyin yolverilməzliyi, yaxud sağlamlıq üçün zərərli olan məhsulların reкlamına qadağa və s.). Özəl TV-lərin öhdəsinə düşən yeganə vəzifə ondan ibarət olmalıdır кi, onlar lazım gəldiкdə teleyayımın ictimai sahəsinin maliyyələşməsində "iştiraк" etsinlər. Əlbəttə, кonкret ölкə daxilində ictimai dəyərlərə əsaslanan özəl TV-lərin güclü təşкilatını yaratmaq, onların işini tənzimləməк nəzəri cəhətdən mümкün ola bilər. Amma heç bir telequrum boynuna zorla qoyulmuş öhdəliкlərə xoş münasibət bəsləməyəcəк. Ona görə də verilişlərinin maкsimum auditoriyası olan hər hansı TV ictimai yayımın prinsiplərini vasitə кimi yox, məqsəd кimi qəbul etməlidir. Bir vaxtlar ictimai teleyayımın **vəzifələri** ənənəvi funкsiyalara uyğun olaraq (məlumatlandırmaq, maarifləndirməк və əyləndirməк) proqramların təmin müəyyənləşirdi. Son illərdə bu yanaşma öz əhəmiyyətini xeyli itirib, çünкi sadalanan funкsiyaları çox vaxt elə özəl кanallar da yerinə yetirir özəllərdə bu vəzifələr adi proqram siyasəti çərçivəsinə salınıb və bunların da bilavasitə təcəssümünü TV proqramlarının gündəliк düzümü və tərtibində görməк olar (5, s.36). Əslində, bu, ictimai xidmətin qarşısında duran vəzifə ilə müqayisədə daha genişdir. Çoxlarına görə, bu vəzifələr yalnız eкrana gedən verilişlərin çeşidini və yayım formalarını əкs etdirir (1;2;5;8). Bu mənada, TV-nin ənənəvi funкsiyalarına bugünкü nəzərlə baxmaq yerinə düşər. Məsələn, informasiya təqdimatı – xəbərlər buraxılışı və ictimai-siyasi proqram-

ların təqdimatı; maarifləndirmə – bütün tamaşaçılar, xüsusilə gənclər üçün öyrədici proqramlar və sənədli filmlərin göstərilməsi; əyləncə təqdimatı – ekranda bədii, musiqili filmlərin və televiktorinaların geniş yer tutması; mədəniyyətin təqdimatı isə tamaşaların, opera və baletin, yaxud yüksək səviyyəli bədii proqramların nümayişi deməkdir. Şübhəsiz ki, ictimai teleyayım bütün bunların hamısını bir günə aid olan proqramında tam əhatə etmək iqtidarında deyil.

Əslində, ictimai xidmətin sadaladığımız bu klassik vəzifələri "Britaniya televiziyasında ictimai xidmət ideyası" adlı sənəddə çoxdan müəyyənləşdirilib və həmin sənədə ictimai xidmət konsepsiyasının əsaslanmalı olduğu prinsiplər haqqında xeyli müddəa salınıb (3, 5-6-9). Bütövlükdə bu materiallar bir vaxtlar ictimai teleyayım xidməti modelinin hazırlanmasının əsasını təşkil edən müasir idealları əks etdirir (6; 7; 8). Yayım sahəsində tədqiqat məsələləri üzrə qrupun həmin sənədində ictimai xidmət ideyasının gerçəkləşdirilməsi üçün əsas şərtlər, ümumi dəyərlər, həmçinin funksiyalar prinsip və öhdəliklər nəzərdən keçirilir.

İctimai teleyayımın əsas vəzifəsi ictimai xidmət ideyasına xas prinsiplərin yerinə yetirilməsindən və onun gerçəkləşdirilməsi üçün ilkin şərtlərin təminatından ibarət olmalıdır. Bəs bu prinsiplər və ilkin şərtlər hansılardır? Konkret milli ərazidə ictimai xidmətin **universallığının,** plüralizmin və müstəqilliyin təmin olunması əsas prinsiplərdir. Universallıq prinsipi ictimai yayımın mümkün qədər geniş auditoriyanı əhatə etməsini nəzərdə tutur. Bu yayım kanalı bütün cəmiyyət və hər kəs üçün açıq olduğuna görə xidmət elə qurulmalıdır ki, ictimai TV coğrafi baxımdan da geniş əraziyə yayılsın, geniş auditoriyanı əhatə etsin və onun proqramlarına mümkün qədər çox sayda adam baxsın. **Plüralizm** isə cəmiyyətdəki mövcud fikir, əqidə, mövqe müxtəlifliyinin ictimai yayımda rəngarəng formalarda əks etdirilməsi deməkdir. Cəmiyyətdə müxtəlif siyasi, fəlsəfi, dini təmayüllərin, ayrı-ayrı baxış və əqidələr mövcud olduğu üçün yayım bu müxtəlifliyi əhatə etməli, eyni zamanda baş verən hər hansı hadisəyə münasibətdə mövcud fikir müxtəlifliyini – plüralizmi ön plana çəkməlidir. Bu isə ictimai yayımdan **rəngarənglik** tələb edir. İctimai yayım kontekstində rəngarənglik proqram növlərinə, TV auditoriyasına və toxunulan mövzulara aiddir. Məsələn, ictimai TV öz proqramlarına müxtəlif mövzuda və formada veriliş modelləri daxil etməklə ictimai zövq rəngarəngliyini əks etdirməyə çalışmalıdır (5; 8; 10).

İctimai yayım xidmətinin zəruri şərtlərindən və əsas prinsiplərindən biri **müstəqillikdir**. Bu prinsipə görə, ictimai yayım xidməti şəxsi maraqlarda və siyasi hakimiyyətə dair məsələlərdə azad və sərbəst olmalıdır (1, s.70; 5, s.34). Birinci aspektə xüsusi əhəmiyyət verilir və qeyd olunur ki, başqa TV-lərdə olan kommersiya meyli, həm ictimai yayım xidməti ideyasının özünə, həm də ictimai TV-lərin praktiki fəaliyyətinə zərbə vurur. Kommersiyalaşma ictimai yayım konsepsiyasına zidd olduğuna və özəl TV-lər bu konsepsiyanın söykəndiyi başlıca prinsipləri (universallıq, plüralizm – rəngarənglik, müstəqillik) gerçəkləşdirmək iqtidarında olmadığına görə, cəmiyyətin əsas diqqəti ictimai teleyayıma yönəlir. Özü də qeyd olunur ki, həqiqi **ictimai yayım xidməti yalnız siyasi hakimiyyət onun fəaliyyətinə qarışmadığı təqdirdə təmin oluna bilər** (3; 8; 9). Lakin bununla yanaşı, Qərbin demokratik ölkələrində ictimai telekanalların kommersiyalaşdırılması nəticəsində ictimai

TV-nin düşdüyü böhran vəziyyətinin aradan qaldırılmasında siyasi hakimiyyətin yaxşı mənada müdaxiləsini unutmaq olmaz.

Avropa ölkələrinin ictimai TV təcrübəsi göstərir ki, **bu yayım nə şəxsi maraqların təminatı üçün alət, nə də ölkədəki mövcud hakimiyyətin mənafeyini qoruyan vasitə deyil** (9, s. 47). Buna görə də yalnız ictimai xidmətin maraqlarına tabe olan ictimai yayım öz fəaliyyətinin müstəqilliyini qorumaq vəzifəsini də məhz özü həll etməlidir. Burada söhbət qətiyyən ictimai teleyayımın konkret siyasi mövqenin formalaşmasına görə məsuliyyət daşıyan siyasi orqana çevrilməsindən getmir (1, s.79). Əksinə, ictimai yayım daim belə bir suala cavab axtarır ki, əgər onun öz statusu və müstəqilliyi təhlükəyə düşərsə nə etməlidir? Həmin situasiyada ictimai TV işlərin gedişinə qarışmaq hüququna malik olmalıdır, yoxsa müşahidəçi kimi qalmalıdır? Mütəxəssislərin fikrincə, bütün hallarda müstəqil ictimai xidmətin maraqlarını qoruyan ictimai teleyayım öz prinsipləri uğrunda mübarizə aparmalıdır. Deməli, kəskin bazar rəqabəti şəraitində fəaliyyət göstərən kommersiya TV-si ilə konkret prinsipləri (universallıq, rəngarənglik – plüralizm və müstəqillik) əsas tutaraq ictimai xidmət vəzifəsini yerinə yetirən və bənzərsiz struktur olan ictimai TV arasındakı fərqləri dəqiq müəyyən etmək lazımdır. Bu fərqlər isə ictimai TV-nin ideallarının və prinsiplərinin məhsulu olan verilişlərdə, konkret proqramların məzmununda özünü göstərir.

Azərbaycan ictimai fikrində bu gün ciddi diskusiyalara səbəb olan ictimai teleradio tipi bir anlayış kimi özünü aydın izah edir.

Hazırda İctimai televiziyanın fəlsəfəsi, mahiyyəti və məqsədi onun qarşısına aşağıdakı tələbləri qoyur:

- bu televiziya diskussiyanın elə kütləvi tribunasına çevrilməlidir ki, həmin diskussiyada cəmiyyətin mümkün qədər geniş fikir spektri öz əksini tapsın;
- ictimai televiziya obyektiv və qərəzsiz informasiya verməlidir;
- bazarın maraqlarına baxmayaraq, plüralizmi, yeni ideyaları inkişaf etdirən, etik normalara söykənən yüksək professional səviyyəli proqramlar hazırlanmalıdır;
- ictimai televiziyanın proqramları müxtəlif milli və Avropa mədəni dəyərlərinin qavranılmasına və qiymətləndirilməsinə kömək göstərməlidir (5, s.31-34; 6, s. 107-109).

Deyilənlərdən bu qənaətə gəlmək olar ki, İctimai TV yayım fəaliyyəti üçün ictimaiyyət qarşısında məsuliyyət daşımalıdır. Bu məqsədlə o, vaxtaşırı cəmiyyət qarşısında hesabatla çıxış etməli, tamaşaçılara isə bu qurumun fəaliyyəti ilə bağlı tənqidi fikir söyləməyə imkan verməlidir. Unudulmamalıdır ki, yayımın bu növü **hakimiyyət üçün deyil, parlament üçün deyil, prezident üçün deyil, hər hansı bir siyasi partiya üçün deyil, məhz cəmiyyət üçündür.**

### ƏDƏBİYYAT


1. Quliyev E. Televiziya: nəzəriyyə, inkişaf meylləri. B., 2004
2. Əlizadə Y.M., Məhərrəmli Q.M. Azərbaycan efiri: tarix və müasirlik. B., 2006
3. İctimai TV: Bi-Bi-Si modeli. B., 2002
4. İTV mətbuat aynasında (məqalələr toplusu). B., 2006
5. Məhərrəmli Q.M. İctimai televiziya. B., 2003
6. Məmmədli C. Müasir curnalistika. B., 2003

7. Məmmədli Z. Dövlət televiziya və radiosundan İctimai teleradioya./ Azərbaycan curnalistiкası кeçid dövründə: problemlər, perspeкtivlər. B., 2002, səh.27-32
8. Общественное телерадиовещание. Документы. Комментарии. Рекомендации. С-Пб. 2000
9. Служба общественного вещания: Проблемы XXI века. Париъ. Изд. Юнеско. 1997.
10. Совет Европы: документы по проблемам СМИ. С-Пб. 1998

## ФИЛОСОФИЯ, ПРИНЦИПЫ И ФУНКЦИИ ОБЩЕСТВЕННОГО ВЕЩАНИЯ

**Г.М.МАГЕРРАМЛИ**

**РЕЗЮМЕ**

Воплощая идею общественной службы, общественное телевидение должно быть адресовано всем, рассматривая самые разнообразные темы, ставя вопросы, которые могут в большей степени касаться одной аудитории зрителей, чем другой и представляя телевизионные жанры, которые могут представлять интерес для общества в целом. По мнению автора к службе общественного вещания следует подходить с точки зрения ее приверженности группе принципов, которые отражают общую философию этого вида вещания. Задача же общественного телевидения должно заключаться в выполнении принципов, присущих идее общественной службы, и в обеспечении выполнения предварительных условий для ее реализации.

В статье указывается что, универсальность, независимость и плюрализм мнений являются общеизвестными принципами общественного телевидения. Автор приходит к мнению, что служба интересам общественной и независимой службы, общественное телевидение должно стремиться к тому, чтобы соблюдать и защищать эти принципы. Именно эти принципы являются отличительными чертами общественного вещания.

## PHILOSOPHY, PRINCIPLES AND FUNCTIONS OF PUBLIC BROADCASTING

**Q.M.MAHARRAMLI**

**SUMMARY**

Embodying the idea of public service, the public television should address everybody considering the various broad-ranging subjects, raising issues, which could, to a great extent, be related to one audience rather than the others, and introducing television genres that could be attractive for the society as a whole. The author believes that the approach to the public service broadcasting should be based on its adherence to a group of principles reflecting the general philosophy of such broadcasting. The target of the public broadcasting should lie in meeting the principles native to idea of public service and supporting the execution of preconditions for its realization.

The article reads that omnitude, independence and pluralism of ideas are the common principles of a public television. The author comes to the point that by serving the public and independent agency, the public television should be keen to respect and maintain these principles. These very principles are the distinctive features of public broadcasting.